**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)-     /2019

“    ”             2019-cu il                                                                    Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Nofəl Rəhman oğlu Abdullayevin katibliyi ilə

iddiaçının nümayəndəsi XXXXoğlunun iştirakı ilə,

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2(010)-     /2018 saylı mülki iş üzrə qəbul etdiyi 24 iyul 2018-ci il tarixli qətnaməsindən cavabdeh XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n   e t d i:**

İddiaçı «XXXX» İKB cavabdeh XXXX oğluna qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, 14 may 2015-ci il tarixli XXXX saylı kredit müqaviləsindən irəli gələn 14 may 2017-ci il tarixə ödənilməmiş 4041,82 ABŞ dolları əsas borc, 1465,03 ABŞ dolları faiz borcu və həmin günə hesablanmış 642,23 ABŞ dolları dəbbə pulu, ümumilikdə 6149,08 ABŞ dolları iddia qaldırılması üçün ödənilmiş 30 manat dövlət rüsumunun cavabdeh XXXXoğlundan iddiaçı “XXXX” İKB-nin xeyrinə tutulması, tutmanın kreditin təminatı kimi cavabdehə məxsus “XXXX” markalı XXXX dövlət qeydiyyat nişanlı avtomobilə yönəldilməsi, həmin avtomobilin açıq hərracda satış yolu ilə realizə edilməsi və satışdan əldə ediləcək məbləğdən iddia tələbi həcmində iddiaçının xeyrinə ödənilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 24 iyul 2018-ci il tarixli 2(010)-     /2018 saylı qətnaməsi ilə iddia qismən təmin edilərək, cavabdeh XXXX oğlundan 4041,82 ABŞ dolları əsas borc, 1465,03 ABŞ dolları faiz borcu və 400 ABŞ dolları cərimə borcu olmaqla, cəmi 5906,85 ABŞ dolları borc və 30 manat ödənilmiş dövlət rüsumunun iddiaçı «XXXX» İnvestisiya Kommersiya Bankının xeyrinə tutulması, tutmanın ipoteka predmetinə yönəldilməklə XXXX oğluna məxsus “XXXX” markalı XXXX dövlət nömrə nişanlı avtomobilin açıq hərracdan satılması və cavabdeh XXXX oğlunun «XXXX» İnvestisiya Kommersiya Bankına olan kredit borcu həmin girov predmetinin satışından əldə ediləcək pul vəsaiti hesabına ödənilməsi, iddiaçının tələbi tam ödənildikdən sonra, satışdan qalan pul vəsaitinin cavabdeh XXXX oğluna qaytarılması qət edilmişdir.

Cavabdeh XXXX oğlu apellyasiya şikayəti verərək, həmin qətnamənin qismən, yəni hesablanmış faiz və cərimə pulunun tutulması hissəsində ləğv edilməsi və iddia tələblərinin həmin hissədə rədd edilməsini xahiş etmişdir.

Apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, borclu yalnız özündə saxladığı əsas borc məbləğinə hesablanan faizləri ödəmək öhdəliyi daşıyır. Kredit müqaviləsində həm dəbbə pulu, həm də normal faiz dərəcəsinin artırılması nəzərdə tutulduğu halda, kreditorun seçiminə görə, onlardan yalnız biri tətbiq oluna bilər. Çünki, dəbbə pulu öhdəliyin təminatı qismində çıxış etdiyi halda, normal faiz dərəcəsinin artırılması maliyyə sanksiyası hesab olunur və həmin sanksiya yalnız Mülki Məcəllənin 449.1-ci maddəsinin dispozisiya şərtləri

daxilində tətbiq oluna bilər. İddiaçı bank faiz borcunu şişirdilmiş formada tələb edir, məhkəmə isə faiz borcunun düzgün hesablanıb-hesablanmamasını araşdırmadan müvafiq ekspertiza təyin etmədən iddiaçı bankın birtərəfli sənədləri əsasında tələb olunan faizin tutulmasını təmin etmişdir. Eyni zamanda, kredit müqavilələri üzrə tətbiq olunmuş cərimə (dəbbə) pulunun məbləğləri ilə də səhvdir. O, kredit müqavilələri üzrə ödənişlərdə problem yaranması səbəbi ilə artıq kredit borcu üzrə öhdəliklərini icra edə bilməməsi və avtomobilin onda olmamasını qeyd edərək, faiz hesablanmasının dayandırılması və məhkəməyə verilməsi üçün ərizə banka ilə müraciət etmişdir. Lakin iddiaçı məhkəməyə müraciət etmək əvəzinə, uzun müddət gözləmə mövqeyində qalmışdır ki, bu da ona tətbiq olunan dəbbə pulunun süni surətdə şişməsi ilə nəticələnmişdir. Halbuki, bank rəhbərləri, kredit öhdəlikləri icra edilmədikdə və ya lazımi qaydada icra edilmədikdə, təcili olaraq kreditin vaxtından əvvəl geri qaytarılması üçün zəruri olan bütün tədbirləri görməyə borcludurlar. Eləcə də, kredit müqaviləsi üzrə öhdəliklərin icrasına başlanıldıqdan sonra iki dəfə baş vermiş devalvasiya nəticəsində Azərbaycan manatı öz dəyərini 55% itirmişdir. Bu isə kredit təşkilatlarına xarici valyutada borcu olan vətəndaşların ödəniş qabiliyyətini əhəmiyyətli dərəcədə pisləşdirmiş və gəliri manatla olan vətəndaşların maddi durumunu son dərəcə əlverişsiz vəziyyətə gətirib çıxarmışdır.

Məhkəmə iclasında iddiaçının nümayəndəsi XXXX oğlu apellyasiya şikayətinə etiraz etdi.

Cavabdeh XXXX oğlu məhkəmə iclasına gəlməmişdir. Məhkəmə kollegiyası Mülki Prosessual Məcəllənin 376.2-ci maddəsini rəhbər tutaraq onun iştirakı olmadan şikayətə baxılmasını mümkün hesab edir.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti təmin edilməməlidir.

Mülki Prosessual Məcəllənin 372.6-cı maddəsinin tələblərini, apellyasiya şikayətinin dəlillərini nəzərə alaraq kollegiya qeyd edir ki, qətnamənin əsaslığı yalnız faiz və cərimə borcuna aid hissədə yoxlanılır.

İşin mübahisəsiz halları ondan ibarətdir ki, tərəflər arasında 14 may 2015-ci il tarixli XXXX saylı kredit müqaviləsi bağlanmış və müqaviləyə əsasən bank tərəfindən XXXX oğluna 24 ay müddətinə, illik 21% ödəmək şərti ilə 6200 ABŞ dolları məbləğində kredit verilmişdir. Kredit müqaviləsinin təminatı kimi tərəflər arasında 14 may 2015-ci il tarixli XXXX saylı ipoteka müqaviləsi bağlanmış və müqaviləyə əsasən cavabdehə məxsus “XXXX” markalı XXXX dövlət qeydiyyat nişanlı avtomobil bank qarşısında ipoteka ilə yüklü etmişdir.

İddiaçı bildirir ki, cavabdeh müqavilə öz üzərinə düşən öhdəliyi lazımi qaydada icra etməmişdir. Cavabdehin kredit müqaviləsi üzrə əsas kredit borcu 4041,82 ABŞ dolları, faiz borcu 1465,03 ABŞ dolları, cərimə 642,23 ABŞ dolları, cəmi borc isə 6149,08 ABŞ dolları təşkil edir.

Cavabdehin mövqeyi apellyasiya şikayətində göstərilənlərdən ibarətdir.

Birinci instansiya məhkəməsi əsas və faiz borcun tutulması hissəsində iddianı tam təmin etmiş, dəbbə pulunu isə azaldaraq həmin hissədə iddianı qismən təmin etmişdir.

Tərəflər arasında bağlanmış kredit müqaviləsinin şərtlərini, kredit müqaviləsinə aid ödəniş cədvəlini, iddiaçı tərəfindən təqdim olunmuş kredit borcunun hesablanması barədə arayışı, hesabdan çıxarışı araşdıraraq və Mülki Məcəllənin 741, 462 və 467-ci maddələrinə əsaslanaraq kollegiya hesab edir ki, faiz borcu və dəbbə puluna aid hissədə birinci instansiya məhkəməsinin gəldiyi nəticə qanuni və əsaslıdır.

Apellyasiya şikayətinin dəlillərinə dair kollegiya qeyd edir ki, kredit müqaviləsi üzrə əsas borca nisbətdə faiz məbləğinin hesablanması (Mülki Məcəllənin 741-ci maddəsi) və öhdəliyin təminatı kimi dəbbə pulunun nəzərdə tutulması (Mülki Məcəllənin 462-ci maddəsi) tamamilə başqa anlayışlardır və pul vəsaitindən istifadəyə görə adi faiz dərəcəsinə uyğun borcun hesablanması heç bir halda maliyyə sanksiyası kimi qəbul edilə bilməz. Borcun şişirdilməsi ilə bağlı dəlillər isə əsaslandırılmayıb və iş üzrə məhkəmə-mühasibatlıq ekspertizasının təyin edilməsi üçün əsaslar yoxdur. Çünki iddiaçının istinad

etdiyi hallar kredit müqaviləsinin şərtləri, ödəniş cədvəli, maliyyə arayışı və hesabdan çıxarışda olan məlumatlarla təsdiq olunur. Cavabdeh isə borcun düzgün hesablanmadığını bildirsə də, bunu təsdiq edən hər hansı sübutu, o cümlədən iddiaçının təqdim etdiyi sənədlərin şübhə altına alınmasına və iş üzrə məhkəmə ekspertizasının təyin edilməsinə əsas verən ilkin sübutları təqdim etməmişdir. Həmçinin tərəflər arasındakı kredit müqaviləsi illik 21 % ödəmək şərti ilə 24 ay müddətinə bağlanmışdır. Ona görə də, iddiaçı kredit müqaviləsinin müddətinin sonunadək olan müddət üçün faiz məbləğini tələb etməkdə haqlıdır. Bundan başqa cavabdehin maddi vəziyyəti iddianın rədd edilməsi üçün əsas ola bilməz. Belə ki, Mülki Məcəllənin 448.1-ci maddəsinə görə əgər bu Məcəllə ilə və müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, borclu onun risk dairəsinə daxil olan öhdəliklərin icra edilmədiyi bütün hallar üçün cavabdehdir.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.1, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t e t d i:**

Cavabdeh XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilməsin.

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2(010)- /2018 saylı mülki iş üzrə qəbul etdiyi 24 iyul 2018-ci il tarixli qətnaməsi faiz və cərimə borcuna aid hissədə dəyişdirilmədən saxlanılsın.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza
Hakimlər: imzalar
Əsli ilə düzdür:

Hakim Raqib Qurbanov